**MƏHƏMMƏD FÜZULİ -530**

**UOT 82**
**https://doi.org/10.59849/2311-8482.2024.2.282**

**ŞƏBNƏM HƏSƏNLİ- QƏRİBOVA***

# MƏHƏMMƏD FÜZULİ YARADICILIĞINDA ELMİ ÜSLUB TƏZAHÜRLƏRİ

*XVI əsr Azərbaycan ədəbi dilin funksional imkanların genişləndirməklə yanaşı, özündən sonra ədəbi-bədii məktəb yaratmış Məhəmməd Füzuli təkcə qüdrətli söz ustadı olmamışdır. Bədii üslubun inkişafında yeni cığır açan, Şərq Türkcəsinin dil imkanlarının genişliyini əsərləri ilə sübuta yetirən Məhəmməd Füzuli nəzmlə elmi biliklərin ifadə mümkünlüyünü ortaya qoymuşdur. Elmsiz şeirinin qüdrətinin olmadığını düşünən şair yaradıcılığı boyunca elm və ədəbiyyatın vəhdətini yaratmağa çalışmış, dediyi hər sözü elm və irfanın ifadəçisi kimi təqdim etmişdir. Füzuli elmi şeirlə, şeiri isə elmlə qarşılıqlı olaraq, yəni poetik şəkildə tibb, təbiət hadisələri, riyaziyyat, məntiq məsəllərini şərh etmişdir. Füzuli maddə ilə məkanın bir-birindən ayrılmaz məfhum olduğunu qeyd edərək müxtəlif elmi məsələləri vəhdətdə götürür. Şair fəlsəfi və ədəbi cəhətdən dövrün filosofları və sənət adamları ilə mübahisələr edir, öz xüsusi fikirlərini qabarıq şəkildə ifadə edir. Ədəbi dilimizin inkişafında M.Füzulinin rolu dilçiliyimizdə kifayət dərəcədə işıqlandırılsa da, onun əsərlərində işlənən elmi məfhumları ifadə edən ifadələr-terminlər tədqiq olunmamışdır. Bunların tədqiqi həmin dövrdə elmlərin inkişafını və elmi dilin inkişaf dərəcəsini aydınlaşdırmağa imkan verir.*

**Açar sözlər:** *Füzuli, elmi üslub, termin, nəzm, nəsr.*

**Giriş**

Orta əsrlərdə Azərbaycan ədəbiyyatının ustad sənətkarı olan Məhəmməd Füzuli təkcə şair kimi deyil, həm də Şərqin görkəmli mütəfəkkiri kimi tanınmışdır. Son dərəcə zəngin ədəbi irs yaradan şairin əsərləri onun sənətkarlıq qüdrətini, söz sənətindəki məharətini əks etdirməklə bərabər elmi bacarığını, dini-fəlsəfi dünyagörüşünü ortaya qoyur. Elmsiz şeirin qüdrətinin olmadığını düşünən şair yaradıcılığı boyunca elm və ədəbiyyatın vəhdətini yaratmağa çalışmış, dediyi hər sözü elm və irfanın ifadəçisi kimi təqdim etmişdir. Füzulinin ədəbi qüdrəti onun əsərlərini çoxsaylığında deyil, əsərləri ilə Azərbaycan dilini ədəbi dil kimi mükəmməlləşdirməsindədir. T. Hacıyevin də yazdığı kimi, "Füzuli bu oğuzcanı Ə.Nəvainin yetkin Şərq türkcəsinin qarşılığı kimi mükəmməl Qərb türkcəsi olaraq formalaşdırdı" (10, s.288).

**Əsas təhlil**

Füzuli yaradıcılığında Azərbaycan dili bütün fikir və düşüncələri ifadə edə biləcək bir ədəbi dil kimi səviyyəsindədir. Ona qədərki şairlərimizin əsərlərində yalnız eşq və təsəvvüfün ifadəçisi olan Azərbaycan dili Füzuli yaradıcılığında elmi düşüncənin də nəzm dili oldu, dini-irfani görüşlərin də. " Füzuli üslubi diferensiasiya imkanını yaratdı və Azərbaycan ədəbi dilini leksik və qrammatik baxımdan bütün üslubi imkanlarla təmin etdi-müvafiq mədəni şərait istənilən funksional üslubu işə sala bilərdi" (10, s.298). Zəngin irsə malik olan Məhəmməd Füzuli Yaxın Şərqdə üç dildə "Divan"ı ilə yanaşı fars dilində "Rindü Zahid", "Səhhət və Mərəz", ərəbcə "Mətlə ül-etiqad" adlı elmi-fəlsəfi əsərləri ilə tanınmışdır. Elmi cəhətdən zəngin biliyə malik olan dahi sənətkar qələmə aldığı bu əsərlərində dövrünün elmi biliklərinə vaqif olduğunu aydın şəkildə ifadə edir. Hüseyn Ayanın da yazdığı kimi "Füzülinin üç dildə, (türkcə, farsça ***və ərəbcə) yazdığı əsərlərə nəzər salsaq deyə bilərik ki, Divanlarında mütəsəvvüf, Leyli və Məcnunda gözəl nəql ustası, "Bəng ü Badə" və "Söhbətül-Əsmar"da təmsili olaraq iki dövləti və başındakıları müqayisə edən bir siyasətçi, "Söhbətül-Əsmar"da meyvələri danışdıran bir nəbatatçı, "Hədiqətüs-Süəda"da bir tarixçi, məktublarında,*** xüsusilə Şikayətnaməsində bir ictimaiyyətçi, Rind ü Zâhiddə bir pedaqoq, "Mətləül-Etiqad fi Mərifətil- Mabdei vəl- məad" ilə "Tərcümeyi- Hədisi-Ərbəin" də bir İslam alimi, "Hüsn ü Eşq" də isə bir təbibdir (2). Nəzm və nəsri dilin bütün üslubi imkanlarını aşkara çıxarmaq üçün məharətlə

istifadə edən Məhəmməd Füzuli sanki, yaradıcılığı boyunca "nəzmi-nazik türk ləfzilə ikən düşvar olur" stereotipini, özünün dediyi "Məndə tovfiq olsa, bu düşvarı asan eylərəm" tezisi ilə aradan qaldırmağa çalışır və buna nail olur. "M.Füzuli dili dedikdə biz bütöv bir hadisəni nəzərdə tutmaqla yanaşı, şairin müxtəlif növ və janrlardakı yaradıcılığının diferensial dil-üslub təcrübəsini də anlayırıq" (3, s.100-101).

Füzuli elmi şeirlə, şeiri isə elmlə qarşılıqlı olaraq, yəni poetik şəkildə tibb, təbiət hadisələri, riyaziyyat, məntiq məsəllərini şərh etmişdir. Füzuli maddə ilə məkanın bir-birindən ayrılmaz məfhum olduğunu qeyd edərək müxtəlif elmi məsələləri bir-biri ilə bağlı halda şərh edir. Şair fəlsəfi və ədəbi cəhətdən dövrün filosofları və sənət adamları ilə mübahisələr edir, öz xüsusi fikirlərini qabarıq şəkildə ifadə edir. "Füzuli dilinin böyük, nadir əlamətlərindən biri onun elmiliyi, fəlsəfiliyidir. Füzuli dilinin elmiliyi təkcə onun fəlsəfi mühakimələrində, həyat və cəmiyyət haqqında ümumiləşdirilmiş fikirlər söyləməsində, elmi - fəlsəfi lüğətdən istifadəsində deyil, həm də fikirlərin ifadə tərzindədir"(4, s.177).

Əsərlərindən aydın olur ki, Füzuli öz dövrünün ən qabaqcıl alimi və qüdrətli söz ustadı olmuşdur. Elm və sənət aləminə əhəmiyyət verilmədiyi şəriət hökmlərinə əməl etməyənlər tənqid edildiyi bir dövrdə Füzuli əsərlərində elmi təbliğ edirdi. Şair yazırdı:

*Himməti iqdamimi, səyü təlaşü cəhdimi*
*Elmü ürfan kəsbinə amadə gördü ruzigar* (7, s.346).

M. Füzuli isə dərin məzmunlu əsərlər yaratmaq məqsədilə öz nəzminə elm, hünər sahiblərinin dərin fikirlərindən, filosofların hakimanə sözlərindən, hünər sahiblərinin incilərindən, özünün dediyi kimi "mirayələr mürəttib qalmışdır"(4, s.175) yəni zinət vermişdir. Bu zinət müxtəlif materialdan tərtib edilmişdir; xüsusən fikrini ifadə etmək üçün xalq dilinin ahəngdar sözləri ilə yanaşı daha çox ərəbcə söz və istilahlar işlətməyə məcbur olmuşdur. Füzuli ayrı cür də edə bilməzdi, çünki bu zaman müsəlman ölkələrində elmi əsərlər əsasən ərəb dilində yazılırdı. Bununla da "Füzulinin Azərbaycan klassik şerini yüksək zirvəyə qaldırması orta əsrlərdə təkcə bədii fikrimizin deyil, həm də ədəbi dilimizin böyük nailiyyəti sayılmalıdır. Bu, ədəbi-mədəni və ictimai-fəlsəfi aspektdən o mərhələnin başlanğıcıdır ki, hazırda dilimiz yüksək zirvəyə çatmış və öz vəzifəsini yüksək səviyyədə yerinə yetirən üslublara şaxələnmişdir" (7, s.140).

M.Fuzili divanında, eləcə də nəsr əsərlərində elmin böyük bir təbliğatçısı olmuş, gəncləri elm öyrənməyə, bilik kəsb etməyə çağırmışdır. Mala, mülkə əsl-məzhəbə güvənənləri ciddi tənqid etmiş, elmi-ədəbi yüksək tutmuşdur. Şair yazır:

*Elmlə, ədəblə tapılar şərəf,*
*Mirvari olmasa, nə lazım sədəf?*
*Fürsətin var ikən sən işsiz qalma,*
*Boş yerə ömrünü gəl etmə tələf.* (1,s.135).

M. Füzuli öz dövrünün ən qabaqcıl alimi və qüdrətli söz ustadı olması onun nəsr dilində yazdığı "Səhhət və Mərəz" əsərində təsvir edilən hadisələrdən də aydın olur. Füzulinin tibbi biliklərini, xəstəliklərin səbəblərini və müalicə üsullarını ifadə etdiyi "Səhhət və Mərəz" nəsr risaləsi farsca olsa da, çox oxunmuş və köçürülmüş, Məclisi-Vala üzvü Lebib Əfəndi tərəfindən tərcümə edilərək, 1857-ci ildə nəşr edilmişdir. Həmçinin onu türk dilinə Əbdülbaki Gölpınarlı(9), alman dilinə isə Oskar Rescher (12) tərcümə etmişdir. Füzuli tibbi sağlamlıq, xəstəlik və müalicə olmaqla üç bölmədə bəhs etdiyi "Səhhət və Mərəz" adlı əsərində dövrün tibb elmini lazımınca dərk etmiş bir həkim kimi görünür. Ruhun Nasut aləmində Mizac adlı qıza aşiq olub evlənməsi, Mizacın 4 xılt- qan, səfra, sevda və bəlğəm məmləkətində yaşaması, Ruh və Mizacın evliliyindən Səhhət adlı övladın dünyaya gəlməsi əsərdə hadisələrin başlanğıc nöqtəsidir. Ruh məclisinə dəvət etdiyi qan, səfra, sevda və bəlğəmi sıra ilə sevdanı başa, səfranı ödə, qanı qaraciyərə, bəlğəmi ağciyərə əyləşdirməsi, 4 xıltın daima şərab içib qürrələnməsinə Ruhun acıqlanması, ədavət, qorxu və qəmin acıqlarını Səhhətdən çıxmaq istəməsi kimi məsələlər tibbi biliklərin alleqorik şəkildə nəzmə çəkilməsidir. Əsərdə insan bədənini təşkil edən və onu dörd qardaş adlandıran şair qan, səfra, bəlğəm, sevda haqqında geniş məlumat verir. Bu biliklərin əsasında antik yunan və Roma təbibləri tərəfindən yaradılan nəzəriyyə dayanır. Humoral patoloji nəzəriyyəyə görə insan bədənini formalaşdıran və xəstəliklərin əlaqəli olduğu 4 bədən ünsürü vardır ki, bunlar qan, sarı səfra, kara səfra, bəlğəmdir. Bu nəzəriyyə islam təbibləri tərəfindən də inkişaf etdirilmişdir. Bu dörd ünsür bədəndəki bütün xəstəliklərin yaranmasında iştirakçı tərəf

kimi özünü göstərir və orta əsr təbibləri xəstəliyin səbəblərini araşdırarkən bu dörd xılta nəzər salır və müalicəni ona əsasən müəyyənləşdirirdilər. Həmin əsasları M.Füzuli "Səhhət və Mərəz" əsərinin əvvəlində "dörd qardaş" adlandırır. Əxlat-ı ərbaa qədim və orta əsrlərdə insanın bioloji, əxlaqi və psixoloji funksiyalarına təsir etdiyi qəbul edilən insan orqanizmində olan dörd maye maddəyə verilən addır. Bu dörd mayenin (qan, öd, sevgi, bəlğəm) tarazlığı pozulduqda sağlamlıq pozulur və xəstəlik yaranır. "Sevda, əqli və psixoloji pozğunluqlara səbəb olur. Qan xəstəlikləri qanın azalıb artması nəticəsində yaranır. Qaraciyər- öddə olan səfranın çoxluğu qaraciyər və böyrək xəstəliklərinə səbəb olar. Bəlğəmin natarazlığı istisqa (qarında su yığılması) yaradır. Yaz qanı, yay səfranı, payız sevdanı, qış bəlğəmi hərəkətə gətirir. Bu mayelərin insanın xarakterinə də təsir etdiyi üçün safrâvî (xolerik), sevdâvî (melanxolik), demevî (sanqvin), balgamî (fleqmatik) kimi psixoloji tiplərin ve mahrûr(*kan* istiqanlı), mebrûd(*safrâ* soyuqqanlı), yâbis (*sevdâ* quruməzac), mertûb(*balgam* yaş təbiətli) şəklində 4 keyfiyyətə əsaslanan xarakterlərin təsnifinə təsir edir" (5, s.134). Füzuli əsərdə əxlatı-ərbaanın rənglərini qara( sevda), qırmızı (qan), ağ (bəlğəm), sarı (səfra) rəngdə təsvir edərək müalicədə bu rənglərə diqqət edilməsi önə çəkilir. Qidalanmanın bu rəngləri dəyişməsini belə təsvir edir: "Ürəyin ətrafında onların hər birinə bir mənzil və məskən müəyyən olundu. Bu məskən də onların rəngi və qoxusu ilə zinətləndi. Sevda dalaqda yerləşdi. Səfra öd (kisəsinə) doğru yönəldi. Qan (qara) ciyərdə yurd saldı. Bəlğəm ağ ciyərdə qərar tutdu". Bununla dövrün tibb elmi səviyyəsində onları rəngində, funksiyalarının pozulması qeyd edilir" (6, s.67). Qeyd etmək lazımdır ki, tibbdə bu dörd ünsür təkcə xəstəliklərə səbəbkar kimi deyil, eyni zamanda insan sağlamlığına təsir edən hava, su, od, torpaq kimi təbiət ünsürləri, uşaqlıq, gənclik, yetkinlik, qocalıq kimi insan ömrünün müəyyən kəsimləri ilə, bürc və ulduzlarla da əlaqədə təqdim edilirdi. Məsələn, Qoç, Buğa, Ekizlər bürcü qan, Xərçəng, Qız, Şir bürcləri səfra, Tərəzi, Əqrəb, Oxatan bürcləri sevda, Dolça, Oğlaq və Balıq bürcləri bəlğəmlə əlaqələndirilirdi. Bu xıltların səbəb olduğu xəstəliklərin müalicəsində tətbiq olunan dərmanlar da nəmli, quru, isti və ya soyuq olmaq şərtilə hazırlanırdı.

Füzuli bədənin sağlamlığını təkcə bu dörd xıltla deyil, müxtəlif duyğu orqanları ilə əlaqədar olduğunu, Dimağ qalasındakı samiə (eşitmə), basirə (görmə), şammə (iybilmə), zaiqə (dadbilmə), lamisə (toxunma), hissi- müştərək, xəyal, mütəsərrifə, vahimə və hafizənin Ruhun bədəni idarəsində kömək olduqlarını alleqorik tərzdə oxucuya çatdırır. Füzulinin bu fikirləri Əl- Bəlxininin ruh və bədən sağlamlığı fikri ilə üst-üstə düşür. " Əqli və psixoloji problemlər anlayışını islam tibb elmində ilk dəfə irəli sürən Əl-Bəlxi nevroloji xəstəliklərin təyini və müalicəsi məsələlərinə toxunmuşdur. Psixofizioloji və psixosomatik tibb məsələlərini "ruhani sağlamlıq"la əlaqələndirərək "ruh" xəstəlikləri "əl-tibbi ər-ruhani" termini ilə, ağıl ilə bağlı tibbi məsələləri "tibb-əl-qəlb" termini ilə ifadə etmişdir" (11, s.63). Bununla yanaşı, bədənin fəaliyyətini təmin edən Ciyər qalasındakı qaziyə, müvəllid, müsəvvir, cazibə, masikə, hazimə, dafiə haqqında məlumat verən Füzuli Bədən, Dimağ və Ciyər mülklərindən sonra Ürəyi ziyarət edir. Ürəkdə ümid, qorxu, məhəbbət, ədavət, fərəh, qəm məskən salmasından danışan Məhəmməd Füzuli cismani sağlamlığın Ürəkdəki 6 məfhumla sıx bağlı olduğunu vurğulayır. Füzuli insan bədəninin Ruh və Mizacın birgəliyindən yaranan Səhhətlə simvollaşdırır. "Mübahisə-dialoq" üsulundan istifadə etməklə Sevda, Səfra, Qan və Bəlğəmin, eləcə də bütün üzvlərin tibbi funksiyaları müəyyənləşdirilir. Şair sevdanı xəyalları inci tək düzən, hər şey dərk edən, eyni zamanda artıq olarsa "dəlilik törədən", və az olarsa "gec oturub, gec duran" bir məfhum olaraq təqdim edir. Qan "həyat vasitəsi, bədən binasının həqiqi banisi olsa da bəlğəmə möhtacdır"(6,s.68). Bu funksiyalar bədii şəkildə ifadə olunsa da, poetikliyi ilə yanaşı elmiliyi ilə seçilir. Qeyd edilir ki, "Rüknlər" dörd əsasın harmoniyasını, "Zəddlər" isə disharmoniyanı, yəni fizioloji-ruhani tarazlığın pozulmasını nəzərdə tutur. Ruh Ürək şəhərində sakin olandan sonra Bədənin harmoniya ilə idarə olunması, daxilində yaşamını təmin edir: "Elə ki, Ruh Ürək şəhərində xoş (oldu) və yaşayış vəsaitini burada hazır gördü, bir gün bir məclis tərtib etdi. Ölkənin əsl-nəcabətlərini dəvət etdi. Sevda mişkiş (qara) paltar ilə özünü bəzədi. Qan qızılgül rəngli geyim ilə özünə zinət verdi. Bəlğəm ağ geyinməyə çalışdı. "Səfra sarı rəngli xələt geyindi" (6, s.67).

Əsərdə Səhhət Mərəzlə qarşılaşır və bu prosesdə şair xəstəliklərin başlanğıc nöqtəsi kimi qidanı və qidanın sevdaya təsirini göstərir. Qidanın düzgün aparılmamasının fəsadları tibbi baxımdan təyin edilir. Mərəzin kəskinləşməsi zamanı Əql yardıma gəlir və Pəhriz vasitəsilə zaiqə, samiə, basirə və şamməni zəiflədərək sevdanı zəiflədir və qanı tərbiyə edir. Mərəzin ilk öncə sevda ilə Səhhəti

pozmağa çalışdıqdan sonra qana meyl edir. Füzuli bu məqamda qan xəstəliklərində tələb olunan müalicəni zaiqə, şammə, basirə və samiə ilə həyata keçirildiyi qeyd edir. Yaranan xəstəliyi səfra ilə əlaqələndirən şair müalicəni bu şəkildə təqdim edir: "Əql Səhhətin köməyinə qalxıb Pərhizə fərman verdi ki, Səfranın fayda büsatını yığışdırsın və ona müxalifət yolunu tutsun. Zaiqə şəkər kimi şeylərə, Samiə sızlayan kamançaya rəğbət etməsin. Basirəni xalis qızıla baxmağa və Şamməni tər çiçək-gül qoxulamağa qoymasın. Səfranın gücü tükəndikcə Səhhət Mərəzə qalib gəldi" (6, s.71). Mübahisə üsulu ilə Füzuli hər bir obrazın dili ilə onun təmsil etdiyi orqanın anatomik-fizioloji təbiətini təsvir edir, həmçinin bədii şəkildə bədənin dörd əsasının- sevdanın- dalaqda, səfranın - öd kisəsində, qanın- qara ciyərdə, bəlğəmim - ağ ciyərdə yerləşdiyini göstərmişdir. Bununla da, Füzuli Sevda, Səfra, Qan və Bəlğəmin mübahisəsində onların tibbi mahiyyəti və funksiyasını bədii və tibbi baxımdan mükəmməl şəkildə birləşdirir. Belə ki, hər bir obrazın dili ilə onların bədəndə funksiyaları, eləcə də patoloji halları, xəstəlik yaradan tərəfləri əks olunur.

"Səhhət və Mərəz" tibbi bir əsər kimi bədən üzvləri, fizioloji halları təsvir edən bədii əsərdir. Dahi sənətkar bu bədii səviyyənin poetik kamilliyini əvvəldən axıradək mükəmməl şəkildə qorumaqla yanaşı, bədən üzvlərini, onların vəzifələrini bədii məzmuna paralel olaraq tibbi-fəlsəfi məzmunda yaratmışdır. Ruhun dörd qardaşla mübarizəsi, onların dialoqunda hər birinin normal və anormal halları təsvir olunmuş, o cümlədən dörd qardaşın onunla müxalifətə girməsinin ciddi tibbi-fəlsəfi səbəbləri müəyyənləşdirilmişdir. Yəni normal vəziyyətdə Ruh Sevda, Səfra, Qan və Bəlğəmlə dostluq edir, yəni normal hallarda bədəndə hər şey öz qaydasında olanda "Ruh"un da tarazlığını təmin edilir. Füzuli Ədavət, Qorxu və Qəmin insan bədəninə psixoloji, fizioloji təsirini də bədiiləşdirmişdir. Əsərdə orta əsrlər tibbinə aid qiymətli məlumatlarla qarşılaşırıq. Bu məlumatlar həmin dövrün tibbi görüşlərinə görə, Ədavət, Yalan, Kin və Paxıllıq kimi mənfi psixoloji keyfiyyətlərlə bağlıdır. Beləliklə, orta əsr tibbi görüşlərinə görə, insanın yalan niyyətləri, kin və paxıllıq hissləri birləşib, ədavət adlanan mənfi psixoloji keyfiyyəti yaradır. Əgər bir insanda ədavət varsa, demək, onda yalan, kin və paxıllıq vardır. Füzuli, "Səhhət və Mərəz" əsəri ilə dövrün tibbi biliklərini nəzmə çəkir, yəni insanın daxilində onun üzvləri ilə birləşməklə ayrı-ayrı bədən üzvləri arasında doğan ziddiyyətlərdən yaranan xəstəlikləri, hər bir üzvün vəzifələrini və onlar arasında əlaqə yaratmaqla bədənin sağlamlığının təmin edilməsini tibbi bilikləri ilə əsaslandırır.

## ƏDƏBİYYAT


1. Araslı H. Böyük Azərbaycan şairi Füzuli. Bakı, 1958.
2. Ayan H. Füzuli`nin Hüsn ü Aşk (Sıhhat u Maraz)ı//*Türkiyat Araştırmaları Dergisi Sayı: 3, Konya 1997, s. 115-120* https://turkoloji.cu.edu.tr/ESKI%20TURK%20%20EDEBIYATI/hu_ayan_02.php
3. Cahangirov M . Milli təşəkkül mərhələsində Azərbaycan ədəbi dilinin aparıcı üslubları. Bakı, 1989.
4. Dəmirçizadə Ə. Azərbaycan ədəbi dilinin tarixi. Bakı, Maarif, 1979.
5. Eliaçık M. Füzûlî'nin Sıhhat u Maraz'ında Ahlât-ı Erbaanın İşlenişi ve Bir Tıp Eseri Terceme-i Hulâsa-ı Tıb İle Mukayesesi/Türkiyat Araştırmaları Dergisi,s. 131-148,s.134
6. Füzuli M, Əsərləri. altı cilddə , V cild, Bakı, Şərq-Qərb, 2005.
7. Füzuli M. Əsərləri. altı cilddə , I cild, Bakı, "Şərq-Qərb", 2005.
8. Füzuli M. Əsərləri. altı cilddə , II cild, Bakı, "Şərq-Qərb", 2005.
9. Gölpınarlı A. Hüsn ü aşk=Sıhhat u maraz, Muhammed b. Süleyman el-Bağdadi Fuzuli. İstanbul Üniversitesi Tıp Tarihi Enstitüsü, 1940.
10. Hacıyev T. Azərbaycan ədəbi dil tarixi. I cild,
11. Həsənli- Qəribova Ş., Türk dillərində elmi üslubun inkişafının tarixi qaynaqları, Bakı, Elm, 2019.
12. Rescher O. Fuzuli Maraz u Sıhhat (çev. yay. Lugal-N. H.) Osnabrück 1979 (TTK Kütüphanesi 5236 A.IV 5236 1979)


***AMEA Nəsimi adına Dilçilik İnstitutu, Türk dilləri şöbəsi, fil.e.d, dos.***
***E-mail:shabnam.hasanli@yahoo.com***

**Shabnam Hasanli – Garibova**

## MANIFESTATIONS OF SCIENTIFIC STYLE IN THE WORK OF MUHAMMED FUZULI

Muhammad Fuzuli was not only a powerful master of words who expanded the functional possibilities of the Azerbaijani literary language of the 16th century but also created a literary and artistic school after him. Muhammad Fuzuli, who opened a new path in the development of creative style and proved the breadth of the language possibilities of Eastern Turkic with his works, revealed the possibility of expressing scientific knowledge through poetry. The poet, who thought his poem without knowledge had no power, tried to create the unity of science and literature throughout his work, presenting every word he said as an expression of science and knowledge. Fuzuli interpreted science with poetry, and poetry with science reciprocally, that is, poetically interpreted parables of medicine, natural phenomena, mathematics, and logic. Noting that matter and space are inseparable concepts, Fuzuli interprets various scientific issues about each other. The poet philosophically and literary debates with the philosophers clearly express his special ideas. Although the role of M. Fuzuli in the development of our literary language is sufficiently illuminated in our linguistics, expressions, and terms expressing the scientific concepts used in his works have not been studied. The study of them allows us to clarify the development of sciences and the degree of development of scientific language in that period.

**Keywords:** *Fuzuli, scientific style, term, verse, prose.*

**Шабнам Гасанлы - Гарибова**

## ПРОЯВЛЕНИЯ НАУЧНОГО СТИЛЯ В ТВОРЧЕСТВЕ МУХАММЕДА ФЮЗУЛИ

Помимо расширения функциональных возможностей литературного языка XVI века, Мухаммад Физули, создавший после себя литературно-художественную школу, был не только мастером мощного слова. Мухаммад Физули, открывший своими произведениями новый путь в развитии художественного стиля и доказавший широту языковых возможностей восточнотюркских языков, раскрыл возможность выражения научных знаний через поэзию. Поэт, считавший, что его стихотворение без знания не имеет силы, стремился во всем своем творчестве создать единство науки и литературы, каждое сказанное им слово представляло как выражение науки и знания. Физули интерпретировал науку с поэзией, а поэзию с наукой взаимно, то есть поэтически интерпретировал притчи медицины, явлений природы, математики и логики. Отмечая, что материя и пространство — неразделимые понятия, Физули трактует различные научные вопросы применительно друг к другу. Поэт философски и литературно дискутирует с философами и художниками того времени, ярко выражает свои особые идеи. Хотя роль М. Физули в развитии нашего литературного языка достаточно освещена в нашей лингвистике, выражения и термины, выражающие научные понятия, используемые в его произведениях, не изучены. Их изучение позволяет выяснить развитие наук и степень развития научного языка в тот период.

**Ключевые слова**: *Физули, научный стиль, термин, стих, проза.*

*AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 13.05.2024**
**Son daxilolma tarixi:20.06.2024**